

# UĞURLARIMIZ

## bizi daha yaxşı çalışmağa ruhlandırır

**Onunla çoxdan tanışam. Sənətinə ürəkdən bağlıdır. İşinə son dərəcə məsuliyyətlə yanaşır. Sadəliyi, səmimiliyi, mehribanlığı, ləyaqətli davranışı, qayğıkeşliyi ilə fərqlənir...**

***Təbii ki, bunlar gəlişigözəl sözlər deyil. İllərdən bəri İkram müəllimin şəxsiyyətində, ölçülü-biçili hərəkətlərində, vəzifəsinə məsuliyyətində, insanlarla ünsiyyətində sezdiyim keyfiyyət, gəldiyim qənaət belədir. Məsəl var deyərlər: "Ot öz kökü üstündə bitər..."***

Bütövlükdə, bu nəciblik bütün ailəyə, ocağa, nəslə sirayət etmişdir. Heç şübhə yoxdur ki, həmsöhbətimin uğurlarında ilk növbədə uşaqlıqdan aldığı tərbiyə, valideyn və müəllim öyüdlərindən geninə-boluna bəhrələnməsi mühüm rol oynamışdır.

Manafov İkram Atabala oğlu 1965-ci ildə anadan olub. Milli Konservatoriyanın xalq çalğı alətləri fakültəsini bitirib. Kamança ixtisası üzrə. Əmək fəaliyyətinə Xırdalan uşaq musiqi məktəbində kamança müəllimi kimi başlamışdır.

2001-ci ildən həmin məktəbin direktorudur. 2006-ci ildə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Abşeron Rayon Komitəsinin sədri seçilmişdir. 2006-cı il İkram müəllim üçün düşərli olub. Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə mükafatlandırılması da məhz bu ilə təsadüf edir.

Yuxarıda qeyd etdiyim kimi, İ.Manafovla çox görüşlərimiz olub: müşavirə və iclaslarda, festival və müsabiqələrdə, konsert və yubiley gecələrində. Bu günlərdə isə görüşümüz onun rəhbərlik etdiyi Xırdalan Uşaq Musiqi Məktəbində baş tutdu. Sinif otaqlarını gəzdik. Dərslərin gedişini izlədik. Son vaxtlar mədəniyyətə göstərilən qayğı və diqqətdən, aparılan quruculuq işlərindən, kollektivin uğurlarından söhbət açdı:

- Xüsusi fərəh və qürur hissilə dövlətimizin mədəniyyətimizə, onun inkişafına hərtərəfli qayğı və diqqət göstərdiyini böyük məmnunluqla qeyd etmək istəyirəm.

Nə qədər möhtəşəm müəssisələr tikilmiş, abad parklar salınmış, mədəniyyətimizin inkişafı və təbliği, dünyada tanıdılması istiqamətində musiqi bayramları, festival və müsabiqələr təşkil olunmuş, milli-mənəvi dəyərlərimizin qorunması sahəsində bir-birindən maraqlı layihələr həyata keçirilmişdir.

Sevindirici haldır ki, bu qayğı və diqqət rayonumuzdan da yan ötməmişdir. İndi Xırdalan bir neçə il əvvəlkinə əsla bənzəmir. Yeni tikilən, əsaslı









şəkildə yenidən qurulan və bərpa edilən obyektlər arasında xeyli mədəniyyət müəssisələri də var.

**Bu haqda geniş söhbət açmazdan əvvəl rahat fəaliyyətimiz üçün bizə əlverişli şərait yaradan, maddi-texniki avadanlıqla, musiqi alətləri ilə təmin olunmağımız üçün kollektivimizə qayğı və diqqətini əsirgəməyən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı cənab Zakir Fərəcova, Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayevə, nazirliyin elm və təhsil şöbəsinin müdiri Yaşar Əliyevə dərin təşəkkür və minnətdarlığımı bildirməyi özümə borc bilirəm.**

İndi də kollektivimiz, onun qazandığı uğur, qarşılaşdığı problemlər barədə. Məlumat üçün bildirirəm ki, 1977-ci ildən fəaliyyətə başlayan məktəbimiz rayonda açılan ilk musiqi məktəbi kimi tarixə düşüb. O zaman məktəbin müəllim və şagird kontingenti təbii ki, indiki şəkildə çox deyilmiş. Cəmi 12 müəllim və 55 nəfər şagird varmış.

Bu gün isə məktəbimizdə 580 nəfər şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 98 nəfər müəllim məşğul olur. Şagirdlərimiz fortepiano, tar, kamança, qarmon, nağara, klarnet, skripka, balaban, saz, kanon və xanəndəlik ixtisasları üzrə təhsil alırlar.

Müəllimlərimizin 30 nəfəri ali təhsillidir. 20 nəfər isə öz məzunlarımızdır. Bir vaxt dərs aldığı müəllimləri ilə çiyin-çiyinə çalışır.

Yeri düşmüşkən qabaqcıl müəllimlərimizin - Nəzakət Vəliyeva (tədris işləri üzrə direktor müavini), İradə Bağırova (fortepiano şöbəsinin müdiri), Raziyə Əliyeva (nəzəriyyə şöbəsinin müdiri), İradə Məmmədova (ansamblları müşayiət şöbəsinin müdiri), Arzu Manafova, Ofelya Osmanova, Qasım Əliyev, Həsən Dərgahquliyev, Rahiz Məmmədov, Yulizana Kuxmazova, Sevinc İbrahimova, Esmira Mədətova, İlqar Məmmədov və başqalarının adlarını da çəkmək istərdim.



Məhz onların gərgin zəhməti, sənətlərinə məhəbbəti, vəzifələrinə məsuliyyəti sayəsində ildən-ilə uğurlarımız artır, uşaqlarımız festival və müsabiqələrdə fərqlənənlər sırasında olurlar.

Belə ki, Uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin 2005-ci ildə keçirilən II Respublika müsabiqəsində birinci yaş qrupu üzrə Atabala Manafzadə (müəllimi İradə Bağırova) I dərəcəli diploma, Şakir Allahverdiyev (müəllimi Arzu Manafova) diplomant adına, ikinci yaş qrupu üzrə Nərgiz Kazımova (müəllimi Arzu Manafova) və Ləman İlhamqızı (müəllimi Vüsalə Qarakişiyeva) diplomant adına layiq görülmüşlər.

Bu uğurumuz 2010-cu ildə də davam etmişdir. Fortepiano və müşayiət fənləri üzrə festivalda Şakir Allahverdiyev və Cavid Əfəndiyev birinci, Nərgiz Kazımova (müəllimləri İradə Məmmədova) isə ikinci yeri qazanmışlar.

Məktəbimiz yalnız festival və müsabiqələrdə deyil, rayon tədbirlərinə də fəal qoşulur, N saylı hərbi hissədə zabit və əsgərlər qarşısında maraqlı konsert proqramı ilə çıxış edir...

**Xırdalan Uşaq Musiqi Məktəbinin fəaliyyətində diqqət çəkən məqamlar, bu kollektivi digər musiqi məktəblərindən fərqləndirən cəhətlər çoxdur. Onların müəyyən qismini dəyərli oxucularımızın nəzərinə çatdırırıq.**

Burada musiqi alətlərinin hazırlanması, təmiri və bərpası ilə məşğul olan müəllimlərdən ibarət xüsusi qrup fəaliyyət göstərir. Onlar üçün məktəb daxilində kiçik emalatxana yaradılmışdır.

Bu bizə vaxt itkisinə məruz qalmadan, başqa yerdə təmirçi axtarmadan sıradan çıxmış musiqi alətlərini istənilən məqamda istifadəyə yararlı hala salmağa, bərpa etməyə imkan verir.

- Yuxarıda mən bizə qayğı və diqqət göstərənlərin minnətdarlıqla adını sadaladım, - deyə İkram müəllim söhbətini davam etdirir. - Bu mənada elmi-metodiki mərkəzin metodistləri haqqında da razılığı-







mı bildirirəm. Bizə heç zaman köməklərini əsirgəmirlər.



Moskvada Dövlət Konservatoriyasının məzunu, İstanbul Yedditepe universitetində çalışan həmyerlimiz, pianoçu doktor İslam Manafovla bağlı da təşəkkürümüzü bildirirəm. İslam müəllim Bakıya hər gəlişi zamanı məktəbimizdə ustad dərsləri verməyi, professional məsləhətləri ilə kollektivimizə çox kömək edir.

Bütün bunlar bizdə uşaqların musiqi zövqünü formalaşdırmağa, musiqinin incəliklərinə dərindən yiyələnməsi üçün bilik və bacarığımızı əsirgəməməyə əlavə stimul yaradır.

Bir fərəhli məqamı da qeyd etməyi özümə borc bilirəm. 2003-cü ildən başlayaraq şagirdlərimiz Dövlət Orkestrinin müşayiəti ilə solo konsertlər keçirir. Onlardan Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə baş tutan konsertləri göstərmək olar.

**Bu mənada ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər və baş dirijor, Xalq artisti Teymur Goyçayevin rəhbərliyi altında keçirilən konsert xüsusilə maraqlı alınmışdır. Burada ayrı-ayrı şagirdlərin ifasında 23 müxtəlif musiqi səsləndirilmişdir.**

**● Y.ARAPLI**



**Redaksiyadan:**

**Məqaləni çapa imzalayırdıq ki, şad bir xəbər aldıq. Gənc pianoçuların Şopen adına festival-müsabiqəsində çoxsaylı ifaçılar arasında öz gözəl çıxışları ilə seçilən Xırdalan Uşaq Musiqi Məktəbinin şagirdləri (Atabala Manafzadə-laureat, Nəriman Əmiraslanov və Nərgiz Kazımova-diplomant) aldıqları mükafatlarla növbəti dəfə müəllim və valideynlərini sevindirmişlər.**

**Uğurlar diləyirik!**